**İbadova, Mətanət**. Düşmənin diz çökdürülməsi bir oğul anası kimi məni çox qürurlandırdı : [əsgər İbadov Əkbər haqqında] / M. İbadova // Azərbaycan : qəzet. - 2020. - **№ 242**.

Qürur hissi ilə bu məktubu təkcə sənə yox, oğlum, bütünlüklə Qarabağda düşmənə öz yerini göstərən, 27 ildən artıq müddətdə işğalda qalan ərazilərimizi döyüşərək azad edib, üçrəngli bayrağımızı qaldıran, Ali Baş Komandanın hər bir əmrinə hazır olan əsgər və zabitlərimizə yazıram.

Müzəffər Ordumuzun qalibiyyət bayrağı ilə düşməni diz çökdürməsi bir ana kimi məni də çox sevindirir. Əlbəttə, bu Qələbə Ali Baş Komandanımız İlham Əliyevin, onun rəhbərliyi ilə son 15-20 ildə formalaşan, güclənən Milli Ordumuzun və xalqımızın birliyinin təntənəsidir.

Əziz övladım İbadov Əkbər Ağamirzə oğlu, sən də, digər əsgər yoldaşların kimi, Qarabağın cənnət guşələrini, işğalda qalan ərazilərini, füsunkarlığını ancaq şəkillərdən və videokadrlardan görmüşdün. 1994-cü ilin aprelində Bakı şəhərinin Yasamal rayonunda anadan oldun. 2000-ci ildə Bakı şəhərindəki 286 saylı məktəbə getdin. Orta məktəbi bitirdikdən sonra 2010-2012-ci illərdə Bakıxanovdakı 12 saylı Bakı Peşə Liseyində təyyarə hissələrinin mexaniki ixtisasına yiyələndin.

Hələ 2012-ci ildə hərbi xidmətə yollananda mənə dedin ki, ana, Qarabağımızı azad etmək şərəfi mənim alnıma yazılıbsa, xoşbəxtsən!

Doğrusu, bütün analar kimi, mən də qan-qada istəməmişəm. Vətənə sağ-salamat xidmətini başa vurub geri qayıtmağın üçün gecə-gündüz dua etdim. Beyləqanda ilyarımlıq əsgəri borcunu verib qayıtdın. Elə hey deyirdin ki, ana, yaxşı topçuyam, kaş, döyüşləri başlayaydıq, mən də öz gücümü ermənilərə göstərəydim, biz məğlub deyilik.

Əsgərlikdə top komandiri olmuşdun. Oğlum, bu dəfə arzuna çatdın, çox sevinirəm! Bundan böyük qürur hissi ola bilərmi ana üçün?! Çünki sən də düşmənə layiqli cavab verən Ordunun sıralarında, ön cəbhədəsən!

Ali Baş Komandanımız İlham Əliyevin işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına bu günlərdə səfəri biz analar üçün Şuşaya özünün bayraq sancması qədər qürurvericidir! Azərbaycan Prezidentinin xalqla, siz əsgərlərlə, Milli Ordunun bütün komandirləri ilə eyni cəbhədə olmasının nümunəsidir. Bu addımı ilə Ali Baş Komandanımız bir daha təsdiqlədi ki, Qarabağ Azərbaycandır! Ermənilərin vandallığı, Paşinyanın sərsəm hərəkətləri göz önündədir. Onlar müqəddəs torpaqlarımızı viran qoysalar da, biz doğma yerlərimizi yenidən cənnətə döndərəcəyik!

Əkbər, oğlum, yaxşı yadımdadır, sən hələ Beyləqanda hərbi qulluqda olarkən göstərdiyin yüksək xidmətlərinə görə komandanlıq tərəfindən təşəkkürnamələr, fəxri fərmanlar almışdın. Bununla mən, atan, qardaşın, qohumlar qürur duyurduq. Elə həmin Vətən sevgisi də sənin ön cəbhəyə könüllü getməyinə vəsilə oldu.

Eşitdik ki, sizin kimi topçularımızın düşmənin atəş nöqtələrini susdurmaqda daha çox xidmətləriniz olub. Mən bilirəm ki, ön cəbhədə döyüşən oğullarımızın hər birinin Vətən üçün döyünən qəlbi var! Düşməni diz çökdürməyiniz də elə bu sevginin bəhrəsidir.

Şəhid anaları başını dik tutub, "Vətən sağ olsun!”- deyir. Siz əsgər balalarımız Şuşamızı azad etmək üçün, hətta, qəddar düşmənlə əlbəyaxa da döyüşdünüz!

Zəfər yürüşünüz mübarək, oğlum! Şuşaya sancdığınız bayraq əbədi qalacaq! Şuşanın azad edilməsindən sonra düşmən diz çökərək bəyanat imzalamağa məcbur oldu! Oğlum, siz bununla xalqımıza Qələbə sevinci yaşatdınız!

Zəfəriniz, Qələbəniz mübarək!

Mətanət İBADOVA,

Bakı şəhəri, Yasamal rayon sakini, könüllü əsgər anası